# MİNNƏTDARLIQ

On ildən artıq idi ki, ürək-damar xəstəliyindən əziyyət çəkirdim. Müalicədən ötrü dəfələrlə həkimlərə müraciət etmişdim. Açığını deyim ki, aldığım müalicələrin o qədər də faydası olmurdu.

Vəziyyətim getdikcə ağırlaşırdı. Mərkəzi Neftçilər Xəstəxanasında müayinə olundum. Həkim Abbasəli Abbasəliyev məni anjoqrafiya etdi. Məlum oldu ki, ürək damarlarımın dördü tutulub. Həkim əməliyyat olunmağımı məsləhət gördü.

Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası İdarə Heyətinin sədri, Mərkəzi Neftçilər Xəstəxanasının Ürək və Damar Xəstəlikləri Mərkəzinin rəhbəri, tibb elmləri namizədi, tanınmış ürək-damar cərrahı Rəşad Mahmudovun qəbulunda oldum. Məni olduqca səmimi, mehriban qarşıladı. Müayinənin cavablarına baxıb açıq ürək əməliyyatına ehtiyac olduğunu bildirdi. Sonra əməliyyatın vaxtını müəyyənləşdirdi.

Əməliyyat ağır sayıldığından çox həyəcan keçirirdim. Lakin həkimimə inanırdım. O, bir çox xəstələrin üzərində əməliyyat aparmış, onları həyata qaytarmışdır. Rəşad Mahmudovun əsl həkimə məxsus davranışı, xəstəyə həssas, qayğıkeş münasibəti həyəcanımı azaldırdı.

Dünya yaxşı insanlardan xali deyilmiş. Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırovun yaxından köməkliyilə əməliyyat olundum. Təcrübəli və peşəkar ürək-damar cərrahı Rəşad Mahmudov üzərimdə açıq ürək əməliyyatı apardı.  Dörd saatlıq əməliyyat uğula başa çatdı. Əməliyyatdan sonra bir həftə xəstəxanada müalicə olundum.

İndi o vaxtdan xeyli keçib. Özümü sağlam, gümrah hiss edirəm. Xilaskarım Rəşad Mahmudov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə “Tərəqqi” medalı və “Əməkdar həkim” fəxri adı ilə təltif olunmuşdur.

Bacarıqlı, təcrübəli və peşəkar ürək-damar cərrahı Rəşad Mamudovun sağaltdığı xəstələrin qəlbində də sonsuz minnətdarlıq və təşəkkürlərdən ibarət çoxlu mükafatlar vardır.

**Rafiq ŞABANOV,**
**Lerik Rayon İcra Hakimiyyəti aqrar məsələlər şöbəsinin baş məsləhətçisi.**